ƏLİXAN MUSAYEV

# 10 HAQQ

Bakı – 2002
www.azerislam.com

بسم الله الرحمن الرحيم

**Bismillahir-rəhmanir-rəhim!**

Rəhmli, mərhəmətli Allahın adı ilə!

# RƏ‘Y

İslamın müxtəlif mövzularını əks etdirən kitabların meydana gəlməsi bu gün sevindirici və təqdirəlayiq bir hal kimi qiymətləndirilə bilər. Bu zəmində yazılmış «10 haqq» kitabı xüsusi əhəmiyyətə malikdir. Belə ki, təqdim olunan kitabda insan həyatını bütövlükdə əhatə edən haqlar dolğun, dini mənbələrə əsaslandırılmış surətdə ifadə edilmişdir. Kitabda hər bir haqq izahlı surətdə göstərilmiş və onun İslamda əhəmiyyəti qeyd edilmişdir. Azərbaycanın gələcəyi sayılan gənclərimizə bu kitabın faydalı olmasına şübhə etmək olmaz. Fikrimcə, oxuculara təqdim olunan bu kitabın tam olaraq İslamda müsəlmanların Allaha, peyğəmbərə (s.ə.s), valideynlərə, cəmiyyətə və s. borcları, haqları barəsində düzgün və qiymətli mə‘lumatın alınmasına səbəb olacaq.

Allaha dua edirik ki, millətimizi bu haqlara əməl edənlərdən etsin! Amin!

***Hacı Sabir HƏSƏNLİ***

***Qafqaz Müsəlmanları İdarəsi***

***Elmi-Dini Şurasının üzvü,***

***ilahiyyat elmləri namizədi***

## ***<u>Mərhəmətli və rəhimli olan Allahın adı ilə!</u>***

# *MÜQƏDDİMƏ*

Şükr və tə‘rif Allaha məxsusdur. Biz ona şükr edir, Onu tə‘rif edirik, Onu köməyə çağırırıq, Ondan bağışlanma diləyirik, nəfslərimizdəki şərdən, əməllərimizdəki pisliklərdən qorunmaq üçün Allaha sığınırıq. Allahın haqq yoluna yönəltdiyi şəxsi azdıran, azdırdığı şəxsi isə yoluna yönəldən tapılmaz. Şəhadət edirəm ki, Allahdan başqa ibadətə haqqı olan tanrı yoxdur, Onun şəriki yoxdur və şəhadət edirəm ki, Məhəmməd Onun qulu və elçisidir.

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ حَقَّ تُقَاتِهِ وَلَا تَمُوتُنَّ إِلَّا وَأَنْتُمْ مُسْلِمُونَ

**«Ey iman gətirən kəslər! Allahdan lazımınca qorxun və yalnız müsəlman olduğunuz halda ölün!»** («Ali İmran» surəsi, 102-ci ayə).[1]

يَا أَيُّهَا النَّاسُ اتَّقُوا رَبَّكُمُ الَّذِي خَلَقَكُمْ مِنْ نَفْسٍ وَاحِدَةٍ
وَخَلَقَ مِنْهَا زَوْجَهَا وَبَثَّ مِنْهُمَا رِجَالًا كَثِيرًا وَنِسَاءً
وَاتَّقُوا اللَّهَ الَّذِي تَسَاءَلُونَ بِهِ وَالْأَرْحَامَ إِنَّ اللَّهَ كَانَ عَلَيْكُمْ
رَقِيبًا

**«Ey insanlar! Sizi tək bir şəxsdən (Adəmdən) xəlq edən, ondan zövcəsini (Həvvanı) yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun! (Adı ilə) bir-birinizdən (cürbəcür şeylər istədiyiniz) Allahdan, həmçinin qohumluq əlaqələrini kəsməkdən həzər edin! Şübhəsiz ki, Allah sizin üzərinizdə nəzarətçidir!»**
**(«ən-Nisa» surəsi, 1).**

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَقُولُوا قَوْلًا سَدِيدًا يُصْلِحْ لَكُمْ
أَعْمَالَكُمْ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ وَمَنْ يُطِعِ اللَّهَ وَرَسُولَهُ فَقَدْ فَازَ فَوْزًا
عَظِيمًا

**«Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin! (Əgər belə etsəniz) Allah əməllərinizi islah edər və günahlarınızı bağışlar. Hər kəs Allaha və Peyğəmbərinə itaət etsə, böyük bir səadətə nail olar»** («əl-Əhzab» surəsi, 70-71).

Müsəlman qardaş və bacılarım! Bu müxtəsər və maraqlı risalə sizi ədalətli olmağa sövq edər və hər bir haqqı olanın haqqını ödəməyə vadar edər. Bu haqlar

**[1] Kitabçada işlənmiş Qur‘an ayələrinin və hədislərin tərcüməsi yalnız təxmini mə‘nanı bildirir.**

hər bir müsəlman üçün ən mühüm olan haqdır və bu haqları ödəmək hər bir müsəlmanın borcudur.

Əzəmətli Allahdan rica edirik ki, Allah sübhanəhu təalanın Kitabını və Rəsulullahın (Ona Allahın salavatı və salamı olsun! – səlləllahu ‘əleyhi va əlihi va səlləm – s.ə.v) Sünnəsini öz həyatının bütün sahələrində rəhbər tutan (cəmi) müsəlman ümmətinə uğurlar bəxş etsin. O, doğrudan da eşidən və cavab verəndir. Sonuncu duamız budur: əl-həmdu lilləhi rabbil-aləmin» – Aləmlərin Rəbbi Allaha şükürlər olsun!

***Əlixan MUSAYEV***

# I HAQQ

## Allahın haqqı

Bu haqq hər bir müsəlman üçün ən mühüm olan haqdır. Bu əzəmətli haqqı ödəmək hər bir müsəlmanın borcudur. Allah-təala bizi analarımızın bətnlərində bir şəkildən başqa şəklə salıb, sonra insan olaraq bu dünyaya gətirib:

وَلَقَدْ خَلَقْنَا الْإِنْسَانَ مِنْ سُلَالَةٍ مِنْ طِينٍ ﴿١٢﴾ ثُمَّ جَعَلْنَاهُ نُطْفَةً فِي قَرَارٍ مَكِينٍ ﴿١٣﴾ ثُمَّ خَلَقْنَا النُّطْفَةَ عَلَقَةً فَخَلَقْنَا الْعَلَقَةَ مُضْغَةً فَخَلَقْنَا الْمُضْغَةَ عِظَامًا فَكَسَوْنَا الْعِظَامَ لَحْمًا ثُمَّ أَنْشَأْنَاهُ خَلْقًا آخَرَ فَتَبَارَكَ اللَّهُ أَحْسَنُ الْخَالِقِينَ ﴿١٤﴾

**«Biz, həqiqətən, insanı tər-təmiz (süzülmüş) palçıqdan yaratdıq. Sonra onu (Adəm övladını) nütfə halında möhkəm bir yerdə (ana bətnində) yerləşdirdik. Sonra nütfəni laxtalanmış qana çevirdik, sonra laxtalanmış qanı bir parça ət etdik, sonra o bir parça əti sümüklərə döndərdik, sonra sümükləri ətlə örtdük və daha sonra onu yeni bir məxluq olaraq yaratdıq. Yaradanların ən gözəli olan Allah nə qədər uca, nə qədər uludur!»** («əl-Mu‘minun» surəsi, 12-14).

Allah-təala biz insanlara bol ne‘mətlər verib ki, bəlkə ona şükr edək:

وَاللَّهُ أَخْرَجَكُمْ مِنْ بُطُونِ أُمَّهَاتِكُمْ لَا تَعْلَمُونَ شَيْئًا وَجَعَلَ لَكُمُ السَّمْعَ وَالْأَبْصَارَ وَالْأَفْئِدَةَ لَعَلَّكُمْ تَشْكُرُونَ ﴿٧٨﴾

**«Allah sizi analarınızın bətnlərindən heç bir şey bilmədiyiniz halda çıxartdı. Sonra sizə qulaq, göz və qəlb verdi ki, bəlkə şükr edəsiniz»** («ən-Nəhl» surəsi, 78).

Allah-təala bizdən yalnız Onun təkliyinə ibadət etməyi istəyir. O istəyir ki, biz insanlar Onun əmrlərini yerinə yetirək və qadağan etdiyi şeylərdən çəkinək:

وَمَا خَلَقْتُ الْجِنَّ وَالْإِنْسَ إِلَّا لِيَعْبُدُونِ ﴿٥٦﴾ مَا أُرِيدُ مِنْهُمْ مِنْ رِزْقٍ وَمَا أُرِيدُ أَنْ يُطْعِمُونِ ﴿٥٧﴾ إِنَّ اللَّهَ هُوَ الرَّزَّاقُ ذُو الْقُوَّةِ الْمَتِينُ ﴿٥٨﴾

**«Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım. Mən onlardan ruzi istəmirəm. Mən onlardan Məni yedirtmələrini də istəmirəm. Şübhəsiz ki, ruzi verən də, yenilməz qüvvət sahibi olan da Allahdır!»** («əz-Zariyat» surəsi, 56-58).

أَلَمْ أَعْهَدْ إِلَيْكُمْ يَا بَنِي آدَمَ أَنْ لَا تَعْبُدُوا الشَّيْطَانَ إِنَّهُ لَكُمْ عَدُوٌّ مُبِينٌ
﴿٦٠﴾ وَأَنِ اعْبُدُونِي هَٰذَا صِرَاطٌ مُسْتَقِيمٌ ﴿٦١﴾ وَلَقَدْ أَضَلَّ مِنْكُمْ جِبِلًّا
كَثِيرًا أَفَلَمْ تَكُونُوا تَعْقِلُونَ ﴿٦٢﴾

**«Ey Adəm övladı! Məgər Mən sizə: "Şeytana ibadət etməyin, o sizin açıq düşməninizdir!" – deyə buyurmadımmı?! Və: "Mənə ibadət edin, bu doğru yoldur!" – deyə əmr etmədimmi?! Həqiqətən, Şeytan içərinizdən çoxlarını yoldan çıxartdı. Məgər ağlınız kəsmirdi?»**
(«Ya Sin» surəsi, 60-62).

Hər bir müsəlman ona vacib olan ibadətləri bacardığı qədər yerinə yetirməlidir:

لَا يُكَلِّفُ اللَّهُ نَفْسًا إِلَّا وُسْعَهَا

**«Allah heç kəsi qüvvəsi çatmayan ışı gorməyə vadar etməz»**
(«əl-Bəqərə» surəsi, 286).

فَاتَّقُوا اللَّهَ مَا اسْتَطَعْتُمْ

**«Allahdan (Allahın əzabından) bacardığınız qədər qorxun»**
(«ət-Təğabun» surəsi, 16).

فَمَنْ شَهِدَ مِنْكُمُ الشَّهْرَ فَلْيَصُمْهُ وَمَنْ كَانَ مَرِيضًا أَوْ عَلَىٰ سَفَرٍ فَعِدَّةٌ
مِنْ أَيَّامٍ أُخَرَ يُرِيدُ اللَّهُ بِكُمُ الْيُسْرَ وَلَا يُرِيدُ بِكُمُ الْعُسْرَ وَلِتُكْمِلُوا
الْعِدَّةَ وَلِتُكَبِّرُوا اللَّهَ عَلَىٰ مَا هَدَاكُمْ وَلَعَلَّكُمْ تَشْكُرُونَ ﴿١٨٥﴾

**«Ramazan ayına yetişən şəxslər bu ayı oruc tutmalıdırlar; xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsunlar. Allah sizin üçün ağırlıq deyil yüngüllük istər ki, fövtə gedən günlərin orucunu tamamlayasınız və sizi düz yola yönəltməsinə görə Ona ("Allahu Əkbər" deməklə) tə‘zim və bəlkə də şükr edəsiniz»**
(«əl-Bəqərə» surəsi, 185).

Babasil xəstəliyinə tutulmuş İmran bin Hüseyn (r.a) namazını necə qılması haqqında Peyğəmbərdən (s.ə.s) soruşduqda, o belə demişdir: *«Ayaq üstə qıl, bacarmırsansa, oturan yerdə qıl, onu da bacarmırsansa, uzanan yerdə qıl!»* (əl-Buxari, 1117-ci hədis).

Allah-təala Onun haqqını ödəməyənlərin halını vəsf edərək buyurur:

وَلَقَدْ ذَرَأْنَا لِجَهَنَّمَ كَثِيرًا مِنَ الْجِنِّ وَالْإِنْسِ لَهُمْ قُلُوبٌ لَا يَفْقَهُونَ بِهَا
وَلَهُمْ أَعْيُنٌ لَا يُبْصِرُونَ بِهَا وَلَهُمْ آذَانٌ لَا يَسْمَعُونَ بِهَا أُولَٰئِكَ كَالْأَنْعَامِ
بَلْ هُمْ أَضَلُّ أُولَٰئِكَ هُمُ الْغَافِلُونَ ﴿١٧٩﴾

**«Biz cinlərdən və insanlardan çoxunu Cəhənnəm üçün yaratdıq. Onların qəlbləri var, lakin onunla (Allahın birliyini sübut edən dəlilləri, özlərinin dini borc və vəzifələrini) anlamazlar. Onların gözləri vardır, lakin onunla (Allahın mö‘cüzələrini) görməzlər. Onların qulaqları vardır, lakin onunla (öyüd-**

**nəsihət) eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də (ondan) daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!» («əl-Ə‘raf» surəsi, 179).**

Allahın dinini yer üzündə bərqərar etmək, Allahın haqqını ödəməkdəndir. Allahın göndərdiyi sonuncu səmavi din olan İslamın əsasları üç qismdir:
1) İslam; 2) İman; 3) Ehsan.

# *İSLAM*

## *İslamın ərkanı beşdir:*

1. Şəhadət gətirmək (Allahın tək, Məhəmmədin Onun qulu və elçisi olmasını təsdiq etmək):

شَهِدَ اللَّهُ أَنَّهُ لَا إِلَٰهَ إِلَّا هُوَ وَالْمَلَائِكَةُ وَأُولُو الْعِلْمِ قَائِمًا بِالْقِسْطِ ۚ لَا إِلَٰهَ إِلَّا
هُوَ الْعَزِيزُ الْحَكِيمُ ﴿١٨﴾

**«Allah Özündən başqa heç bir tanrı olmadığına şahiddir. Mələklər və elm sahibləri də haqqa-ədalətə boyun qoyaraq O qüvvət və hikmət sahibindən başqa ibadətə layiq heç bir varlıq olmadığına şəhadət verdilər» («Ali İmran» surəsi, 18);**

مَا كَانَ مُحَمَّدٌ أَبَا أَحَدٍ مِنْ رِجَالِكُمْ وَلَٰكِنْ رَسُولَ اللَّهِ وَخَاتَمَ النَّبِيِّينَ ۗ
وَكَانَ اللَّهُ بِكُلِّ شَيْءٍ عَلِيمًا ﴿٤٠﴾

**«Məhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın elçisi və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi biləndir» («əl-Əhzab» surəsi, 40).**

2. Namaz – gündəlik beş namazı öz vaxtında qılmaq;

3. Zəkat vermək:

وَمَا أُمِرُوا إِلَّا لِيَعْبُدُوا اللَّهَ مُخْلِصِينَ لَهُ الدِّينَ حُنَفَاءَ وَيُقِيمُوا الصَّلَاةَ
وَيُؤْتُوا الزَّكَاةَ ۚ وَذَٰلِكَ دِينُ الْقَيِّمَةِ ﴿٥﴾

**«Halbuki onlara əmr edilmişdir ki, Allaha – dini yalnız Ona məxsus edərək, digər bütün dinlərdən islama dönərək – ibadət etsinlər, namaz qılıb, zəkat versinlər. Doğru-düzgün din budur»** («əl-Bəyyinə» surəsi, 5).

4. Oruc tutmaq: يَا أَيُّهَا الَّذِينَ آمَنُوا كُتِبَ عَلَيْكُمُ الصِّيَامُ كَمَا كُتِبَ عَلَى
الَّذِينَ مِنْ قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ ﴿١٨٣﴾

**«Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi. Bəlkə, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz»** («əl-Bəqərə» surəsi, 183).

5. Həcc:

وَلِلَّهِ عَلَى النَّاسِ حِجُّ الْبَيْتِ مَنِ اسْتَطَاعَ إِلَيْهِ سَبِيلًا وَمَن كَفَرَ فَإِنَّ اللَّهَ غَنِيٌّ عَنِ الْعَالَمِينَ ﴿٩٧﴾

**«Onun yoluna (ərzaq, minik, sağlamlıq və təhlükəsizlik baxımından) gücü çatan hər bir kəsin Həccə gedib o evi (müqəddəs Kə‘bəni) ziyarət etməsi insanların Allah qarşısında borcudur. Kim bunu inkar edərsə, özünə zülm etmiş olar. Əlbəttə, Allah aləmlərə (heç kəsə) möhtac deyildir»** («Ali İmran» surəsi, 97).

# *İMAN*

## *<u>İmanın ərkanı altıdır</u>*

1. Allaha iman;
2. Mələklərə iman;
3. Səmavi kitablara iman;
4. Peyğəmbərlərə iman;
5. Axirət gününə iman:

لَّيْسَ الْبِرَّ أَن تُوَلُّوا وُجُوهَكُمْ قِبَلَ الْمَشْرِقِ وَالْمَغْرِبِ وَلَٰكِنَّ الْبِرَّ مَنْ
آمَنَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ وَالْمَلَائِكَةِ وَالْكِتَابِ وَالنَّبِيِّينَ

**«Yaxşı əməl heç də (ibadət vaxtı) üzünüzü günçıxan və günbatana tərəf çevirməkdən ibarət deyildir. Yaxşı əməl sahibi əslində Allaha, axirət gününə, mələklərə, kitaba (Allahın nazil etdiyi bütün ilahi kitablara) və peyğəmbərlərə inanandır»** («əl-Bəqərə» surəsi, 177).

6. Xeyir və şərin qədərinin Allahdan olmasına iman:

إِنَّا كُلَّ شَيْءٍ خَلَقْنَاهُ بِقَدَرٍ ﴿٤٩﴾

**«Şübhəsiz ki, biz hər şeyi müəyyən ölçüdə (lazım olduğu qədər) yaratdıq»** («əl-Qəmər» surəsi, 49).

İmanın şö‘bələri altmış doqquzdur.

Əbu Hüreyrədən (Allah ondan razı olsun! – r.a) rəvayət olunan hədisdə Peyğəmbər (s.ə.s) demişdir: *«İman altmış və bir neçə şö‘bədən ibarətdir, həya da imanın şö‘bəsindəndir»* («Səhih əl-Buxari», «İman kitabı», 1/9, səh.67).

**Şərh:** İmanın şö‘bələri üç əsas qismə bölünür:

## *<u>I. Qəlbə aid olan əməllər.<br>İmanın bu qismi iyirmi dörd növdür:</u>*

1 - Allaha iman
2 - Mələklərə iman

3 - Allahın nazil etdiyi kitablara iman
4 - Allahın göndərdiyi elçilərə iman
5 - Qiyamət gününə iman
6 - Xeyir və şərin qədərinin Allahdan olmasına iman
7 - Allahı sevmək
8 - Allah xatirinə sevmək və qəzəblənmək
9 - Məhəmməd Peyğəmbəri (s.ə.s) sevmək
10 - İxlas (Allah uğrunda görülən bir işdə riya və nifaqı tərk etmək)
11 - Tövbə etmək
12 - Qorxu (yə‘ni Allahdan qorxmaq)
13 - Həyalı olmaq
14 - Şükr etmək
15 - Səbr etmək
16 - Ümid etmək (Allahın rəhmətinə)
17 - Vəfalı olmaq
18 - Qəza və Qədərə razı olmaq
19 - Rəhmli olmaq
20 - Təvazökar olmaq
21 - Təkəbbürlü olmamaq
22 - Həsəd, paxıllıq etməmək
23 - Kin saxlamamaq
24 - Qəzəblənməmək

## ***II. Dilə aid olan əməllər. İmanın bu qismi yeddi növdür:***

1 - Şəhadət gətirmək
2 - Qur‘an oxumaq
3 - Faydalı elm öyrənmək
4 - Faydalı elm öyrətmək
5 - Dua etmək
6 - Zikr etmək
7 - Faydası olmayan sözlər danışmamaq

## ***III. Bədənə aid olan əməllər. İmanın bu qismi otuz səkkiz növdür:***

1 - Zahiri və daxili təmizlik
2 - Övrət yerini örtmək
3 - Namaz qılmaq
4 - Zəkat vermək
5 - Oruc tutmaq
6 - Qul azad etmək
7 - Həcc və Ümrə ziyarəti etmək
8 - Yaxşılıq etmək, qonaqpərvər olmaq
9 - Kə‘bənin ətrafında təvaf etmək
10 - Qədr gecəsini ibadətlə keçirmək
11 - E‘tikaf etmək (Ramazan ayının axırıncı on gününü məsciddə qalmaq)
12 - Hicrət etmək
13 - Nəzir etdikdə onu ödəmək
14 - Allaha itaət edib, Ona asi olmayaraq imanı artırmaq
15 - Hər hansı bir günaha görə müəyyən cəriməni (kəffarəni) ödəmək
16 - Evlənmək və ya ərə getmək
17 - Ailəni dolandırmaq
18 - Valideynlərin qayğısına qalmaq, onlara asi olmamaq
19 - Uşaqları tərbiyə etmək
20 - Qohumluq əlaqələrini möhkəmləndirmək
21 - Ağaya itaət etmək, qul ilə mülayim rəftar etmək
22.- Ədalətlə hökm vermək
23 - Qonşuya yaxşılıq etmək
24 - İxtiyar sahiblərinə itaət etmək
25 - Müsəlman camaatı ilə həmrə‘y olmaq
26 - Borc aldıqda onu qaytarmaq
27 - İnsanlar arasında sülh yaratmaq
28 - Cihad etmək (nəfslə, şeytanla və s.)
29 - Əxlaqlı olmaq, gözəl rəftar etmək
30 - Sədəqə vermək (Allah yolunda maldan xərcləmək)
31 - İsraf etməmək
32 - Salamı almaq
33 - İnsanlara əziyyət verməmək;
34 - Xeyirli işlərdə şərik olmaq
35 - Əmanətə xəyanət etməmək
36 - Boş söhbətlərdən, faydasız işlərdən uzaq olmaq
37 - Asqırıb «əlhəmdu lilləh»[2] deyənə «yarhəmukəllah»[3] demək
38 - Əziyyət verən bir şeyi yoldan kənar etmək

---

**[2] Həmd (şükr, tə‘rif və s.) Allaha məxsusdur.**
**[3] Allah sənə rəhm etsin.**

## *EHSAN*

Yə‘ni, Allaha elə ibadət et ki, sanki sən Onu görürsən, bunu bacarmasan, O səni görürmüş kimi Ona ibadət et:

إِنَّ اللَّهَ مَعَ الَّذِينَ اتَّقَوا وَّالَّذِينَ هُم مُّحْسِنُونَ

**«Həqiqətən, Allah Ondan qorxub pis əməllərdən çəkinənlər və yaxşı işlər görənlərlədir (möhsünlərlədir)»** («ən-Nəhl» surəsi, 128).

الَّذِي يَرَاكَ حِينَ تَقُومُ وَتَقَلُّبَكَ فِي السَّاجِدِينَ إِنَّهُ هُوَ
السَّمِيعُ الْعَلِيمُ

**«O Allah ki, səni namaza duranda da görür, səcdə edənlər içində dolananda da. Həqiqətən, (hər şeyi) eşidən və bilən Odur»** («əş-Şüəra» surəsi, 218-220).

# II HAQQ

## Məhəmməd peyğəmbərin (s.ə.s) – in haqqı

Məhəmməd (s.ə.s) Fil ilində (miladi tarixlə 570 və ya 571-ci il) anadan olub, Allah-təala onu 40 yaşında bütün bəşəriyyət (insanlar və cinlər) üçün peyğəmbər seçmişdir:

قُلْ يَا أَيُّهَا النَّاسُ إِنِّي رَسُولُ اللَّهِ إِلَيْكُمْ جَمِيعًا

**«De ki: "Ey insanlar! Mən Allahın sizin hamınız üçün göndərilmiş elçisiyəm"»** («əl-Ə‘raf» surəsi, 158).

قُلْ أُوحِيَ إِلَيَّ أَنَّهُ اسْتَمَعَ نَفَرٌ مِّنَ الْجِنِّ فَقَالُوا إِنَّا سَمِعْنَا قُرْآنًا عَجَبًا
يَهْدِي إِلَى الرُّشْدِ فَآمَنَّا بِهِ وَلَن نُّشْرِكَ بِرَبِّنَا أَحَدًا

**«[Ya Peyğəmbər!] De: "Mənə vəhy olundu ki, bir dəstə cin dedilər: – Biz çox qəribə, təsəvvür edilməz dərəcədə gözəl olan bir Qur‘an eşitdik. O, haqq yolu göstərir. Biz ona iman gətirdik və heç kəsi Rəbbimizə şərik qoşmayacağıq"»** («əl-Cinn» surəsi, 1-2).

On üç il Məkkədə və on il Mədinədə olan insanları Allahın dini olan İslama də‘vət etmişdir. Allah onu bir şahid kimi insanlara göndərib:

إِنَّا أَرْسَلْنَاكَ شَاهِدًا وَمُبَشِّرًا وَنَذِيرًا

**«Həqiqətən, Biz səni bir şahid, bir müjdəçi və bir qorxudan peyğəmbər kimi göndərdik»** («əl-Fəth» surəsi, 8).

Belə olduğu halda:

**1.** Onun əmrlərini yerinə yetirib, qadağan etdiyi şeylərdən çəkinməliyik ki, bu da ona olan haqqımızdır. Allah-təala Qur‘anda buyurur:

بِالْبَيِّنَاتِ وَالزُّبُرِ وَأَنزَلْنَا إِلَيْكَ الذِّكْرَ لِتُبَيِّنَ لِلنَّاسِ مَا نُزِّلَ إِلَيْهِمْ وَلَعَلَّهُمْ
يَتَفَكَّرُونَ ﴿٤٤﴾

**«Biz onları (peyğəmbərliklərinin doğru olduğunu sübut edən) aşkar mö‘cüzələr və kitablarla göndərdik. Sənə (peyğəmbərə) də Qur‘anı nazil etdik ki, insanlara onlara göndəriləni (hökmləri, halal-haramı) izah edəsən və bəlkə onlar da düşünüb dərk edələr!»** («ən-Nəhl» surəsi, 44).

وَمَا آتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَاكُمْ عَنْهُ فَانتَهُوا وَاتَّقُوا اللَّهَ

**«Peyğəmbər sizə nə verirsə (şəriət hökmü) onu götürün, nəyi qadağan edirsə, ondan əl çəkin, Allahdan qorxun!»**
(«əl-Həşr» surəsi, 7).

قُلْ إِن كُنتُمْ تُحِبُّونَ اللَّهَ فَاتَّبِعُونِي يُحْبِبْكُمُ اللَّهُ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ
وَاللَّهُ غَفُورٌ رَّحِيمٌ ﴿٣١﴾

**«De ki: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayan və mərhəmətlidir»** («Ali İmran» surəsi, 31).

Bu ayələrdən belə nəticə çıxır ki, Peyğəmbərin (s.ə.s) sünnəsini tətbiq etmək, onun haqqını ödəmək deməkdir. Sünnənin lüğəti mə‘nası yol deməkdir. Şəriətdə olan mə‘nası isə – Peyğəmbərin (s.ə.s) dedikləri, etdikləri, səhabələrinin dediklərini, etdiklərini təsdiq etməsi və onun zahiri görünüşüdür.

Peyğəmbərin (s.ə.s) sünnəsi də Allah tərəfindən nazil olunub:

وَمَا يَنطِقُ عَنِ الْهَوَىٰ ﴿٣﴾ إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَىٰ ﴿٤﴾

**«O havadan (kefi istəyəni) danışmır, danışdığı ancaq nazil olan bir vəhydir»** («ən-Nəcm» surəsi, 3-4).

Hər bir müsəlmanın borcudur ki, şəriət hökmlərində Allahı və Onun rəsulunu (s.ə.s) hakim tə‘yin etsin:

فَإِن تَنَازَعْتُمْ فِي شَيْءٍ فَرُدُّوهُ إِلَى اللَّهِ وَالرَّسُولِ إِن كُنتُمْ تُؤْمِنُونَ بِاللَّهِ
وَالْيَوْمِ الْآخِرِ ذَٰلِكَ خَيْرٌ وَأَحْسَنُ تَأْوِيلًا ﴿٥٩﴾

**«Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Onun elçisinə həvalə edin. Bu daha xeyirli və nəticə e‘tibarilə daha yaxşıdır»** («ən-Nisa» surəsi, 59).

فَلَا وَرَبِّكَ لَا يُؤْمِنُونَ حَتَّىٰ يُحَكِّمُوكَ فِيمَا شَجَرَ بَيْنَهُمْ ثُمَّ لَا يَجِدُوا
فِي أَنفُسِهِمْ حَرَجًا مِّمَّا قَضَيْتَ وَيُسَلِّمُوا تَسْلِيمًا ﴿٦٥﴾

**«Amma xeyr! Sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim tə‘yin etməyincə və verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə iman gətirmiş olmazlar»** («ən-Nisa» surəsi, 65).

Peyğəmbərin (s.ə.s) haqqını qəsdən inkar edənin yeri cəhənnəmdir:

وَمَن يُشَاقِقِ الرَّسُولَ مِن بَعْدِ مَا تَبَيَّنَ لَهُ الْهُدَىٰ وَيَتَّبِعْ غَيْرَ سَبِيلِ
الْمُؤْمِنِينَ نُوَلِّهِ مَا تَوَلَّىٰ وَنُصْلِهِ جَهَنَّمَ وَسَاءَتْ مَصِيرًا ﴿١١٥﴾

**«Hər kəs özünə doğru yol aşkar olandan sonra Peyğəmbərdən üz döndərib (sünnəni inkar edib) mö‘minlərdən (səhabələrdən) qeyrisinin yoluna uyarsa, onu istədiyi yola yönəldər və cəhənnəmə varid edərik. Ora necə də pis yerdir»** («ən-Nisa» surəsi, 115).

فَلْيَحْذَرِ الَّذِينَ يُخَالِفُونَ عَنْ أَمْرِهِ أَن تُصِيبَهُمْ فِتْنَةٌ أَوْ يُصِيبَهُمْ
عَذَابٌ أَلِيمٌ ﴿٦٣﴾

**«Onun (Peyğəmbərin) əmrinə qarşı çıxanlar başlarına gələcək bir bəladan, yaxud düçar olacaqları şiddətli bir əzabdan həzər etsinlər»** («ən-Nur» surəsi, 63).

Ümumiyyətlə, Peyğəmbərin (s.ə.s) sünnəsi altı qismdir:

**Birinci:** səbəbi olan sünnə. Yə‘ni Peyğəmbərin (s.ə.s) hər hansı bir səbəbə görə etdiyi ibadət.

Buna misal: Peyğəmbər (s.ə.s) asqırdıqdan sonra «əl-həmdu lilləh» deyərdi. Deməli, səbəbsiz yerə bunu etmək sünnəyə müxalifdir. Məsələn, əsnədikdə «əl-həmdu lilləh» demək olmaz.

**İkinci:** keyfiyyəti olan sünnə. Yə‘ni Peyğəmbərin (s.ə.s) hər hansı bir keyfiyyətdə etdiyi ibadət.

Buna misal: Peyğəmbər (s.ə.s) namaz qıldıqda səcdəni rükudan sonra edərdi. Deməli, rükudan qabaq səcdə etmək sünnəyə müxalifdir.

**Üçüncü:** miqdarı olan sünnə. Yə‘ni Peyğəmbərin (s.ə.s) hər hansı bir miqdarda etdiyi ibadət.

Buna misal: Peyğəmbər (s.ə.s) zöhr namazını 4 rükət qılardı. Deməli, Zöhr namazını 4 rükətdən artıq və ya əskik qılmaq sünnəyə müxalifdir.

**Dördüncü:** cinsi olan sünnə. Yə‘ni Peyğəmbərin (s.ə.s) hər hansı bir cinsdən etdiyi ibadət.

Buna misal: Peyğəmbər (s.ə.s) qurban bayramında (zi-l-hiccə ayının 10-u, 11-i, 12-i və 13-ü, yə‘ni qurban günləri) üç cinsdən qurban kəsməyi buyurmuşdur. Bu heyvanlar dəvə, öküz, qoçdur. Deməli, qurban bayramında bu heyvanlardan başqa ətinin yeyilməsi halal olan heyvanı (xoruz, at və s.) qurban kəsmək sünnəyə müxalifdir.

**Beşinci:** zamanı olan sünnə. Yə‘ni Peyğəmbərin (s.ə.s) hər hansı bir zamanda etdiyi ibadət.

Buna misal. Peyğəmbər (s.ə.s) məğrib namazını gün batdıqdan sonra qılardı. Deməli, gün batmamış məğrib namazını qılmaq sünnəyə müxalifdir.

**Altıncı:** məkanı olan sünnə. Yə‘ni Peyğəmbərin (s.ə.s) hər hansı bir məkanda etdiyi ibadət.

Buna misal: Peyğəmbər (s.ə.s) e‘tikafı (Ramazan ayının axır on gününü müəyyən olunmuş yerdə keçirmək) məsciddə edərdi. Deməli, e‘tikafı məsciddən başqa yerdə keçirmək sünnəyə müxalifdir.

**Qeyd:** Sünnəyə müxalif olan ibadət qəbul olunmur.

Aişədən (r.a) rəvayət olunan hədisdə Peyğəmbər (s.ə.s) demişdir: *«Bizim etdiyimiz əməllərə yenilik əlavə edən kimsənin əlavəsi rədd olunur»* (Müslim, 4467).

**2**. Həmçinin onu bütün məxluqatdan çox sevmək onun haqlarındandır. Ənəs bin Malikin (r.a) rəvayət etdiyi hədisdə Peyğəmbər (s.ə.s) demişdir: *«Sizdən biriniz məni valideynindən, övladından və cəmi insanlardan çox sevməyincə imanı* (kamil) *olmaz»* (Müslim, 167).

---

# III HAQQ

---

## Valideynin haqqı

Allah və Onun elçisindən sonra, hər kəs üçün ən fəzilətli olan onun valideynidir. Övlad üçün ata-ananın hər birinin özünə görə fəziləti var. Lakin, ananın fəziləti daha çoxdur:

وَوَصَّيْنَا الْإِنسَانَ بِوَالِدَيْهِ حَمَلَتْهُ أُمُّهُ وَهْنًا عَلَىٰ وَهْنٍ

**«Biz insana ata-anasına yaxşılıq etməyi (valideyninə yaxşı baxmağı, onlarla gözəl davranmağı) tövsiyə etdik. Anası onu (bətnində) çox zəif bir halda daşımışdı»** («Loğman» surəsi, 14).

**1.** Onların qayğısını çəkmək və onlarla yaxşı rəftar etmək övladın borcudur:

وقضى ربك ألا تعبدوا إلا إياه وبالوالدين إحسانا إما يبلغن عندك
الكبر أحدهما أو كلاهما فلا تقل لهما أف ولا تنهرهما وقل لهما قولا
كريما ﴿٢٣﴾ واخفض لهما جناح الذل من الرحمة وقل رب ارحمهما
كما ربياني صغيرا ﴿٢٤﴾

**«Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşgün çağına yetərsə, onlara "Uf!" – belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış. Onların hər ikisinə acıyaraq mərhəmət qanadının altına alıb: "Ey Rəbbim! Onlar məni körpəliyimdən (nəvazişlə) tərbiyə edib bəslədikləri kimi, Sən də onlara rəhm et!" – de»**
(«əl-İsra» surəsi, 23-24).

Əbu Hüreyrə (r.a) deyir: *«bir kişi Peyğəmbərin (s.ə.s) yanına gəlib dedi: "Ey Allahın elçisi! Kimə daha çox qayğı göstərməliyəm?" O dedi: "Anana". Kişi soruşdu: "Sonra kimə?" Peyğəmbər (s.ə.s) dedi: "Anana". Kişi təkrar soruşdu: "Bəs daha sonra kimə?" O yenə cavab verdi: "Anana". Kişi bir daha soruşdu: "Bəs daha sonra kimə?" Peyğəmbər (s.ə.s) bu dəfə dedi: "Atana"»* (əl-Buxari, 5971).

Bu qayğı təkcə bizə yox, bizdən əvvəlki ümmətlərə də buyurulmuşdur.

**2.** Valideyni söydürməmək onun haqlarındandır.

Abdullah bin Amrdan (r.a) rəvayət olunan hədisdə Peyğəmbər (s.ə.s) demişdir: *«Kişinin valideynlərini lə‘nətləməsi* (söyməsi) *böyük günahlardandır».* (Səhabələr)*: «Ey Allahın elçisi! Kişi valideynlərini lə‘nətləyərmi?» – deyə soruşduqda, o dedi: «Birinin ata-anasını söyür, o da qayıdıb onun ata-anasını söyür»* (əl-Buxari, 5973).

**3**. Valideyni İslama də‘vət etmək onun haqlarındandır.

Əbu Hüreyrə (r.a) belə rəvayət edir: *«Mən müşrik olan anamı İslama də‘vət edirdim. Bir gün yenə onu də‘vət etdikdə, Peyğəmbər (s.ə.s) haqqında nalayiq sözlər dedi. Mən ağlaya-ağlaya Peyğəmbərin (s.ə.s) yanına gəlib, dedim: "Ey Allahın elçisi! Mən anamı islama də‘vət edirdim, o bunu inkar edib, sənin haqqında nalayiq sözlər dedi. Allaha dua et, Əbu Hüreyrənin anasına hidayət versin!" Peyğəmbər (s.ə.s) dedi: "Allahım, Əbu Hüreyrənin anasına hidayət ver!" Mən Peyğəmbərin (s.ə.s) duasından sonra sevincək evə getdim. Qapıya çatdıqda anam ayaq səslərimi eşitdi və mənə yerimdə durmağı əmr etdi. Sonra çimib* (qüsl edib) *paltarını geyindi, qapını açıb mənə dedi: "Əbu Hüreyrə! Şəhadət verirəm ki, Allahdan başqa* (ibadət haqqı olan) *mə‘bud yoxdur və Məhəmməd Onun qulu və elçisidir". Mən sevincimdən ağlaya-ağlaya Peyğəmbərin (s.ə.s) yanına gəlib ona dedim: "Ey Allahın elçisi! Gözün aydın! Allah sənin duanı qəbul etdi və Əbu Hüreyrənin anasına hidayət verdi…"»* (Müslim, 6346).

**Qeyd:** Valideyn kafir olsa belə, onun dünyəvi haqqını ödəməliyik (gözəl rəftar etmək, kömək etmək, sözünə qulaq asmaq və s.). Lakin Allahın haram buyurduğu işlərə sövq etsələr, əməl etməməliyik.

**4.** Valideynlər vəfat etdikdən sonra onlar üçün dua etmək, Allahdan bağışlanma diləmək də onların haqlarındandır:

رَبَّنَا اغْفِرْ لِي وَلِوَالِدَيَّ وَلِلْمُؤْمِنِينَ يَوْمَ يَقُومُ الْحِسَابُ ﴿٤١﴾

**«Ey Rəbbimiz! Haqq-hesab çəkilən gün məni, ata-anamı və mö‘minləri bağışla!»** («İbrahim» surəsi, 41).

# IV HAQQ

## Övladın haqqı

Övladı İslam tərbiyəsi ilə tərbiyələndirib cəhənnəm odundan qorumaq Allahın əmrlərindəndir:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا قُوا أَنفُسَكُمْ وَأَهْلِيكُمْ نَارًا

**«Ey iman gətirənlər! Özünüzü və əhli-əyalınızı cəhənnəm odundan qoruyun!»** («ət-Təhrim» surəsi, 6).

Abdullah bin Ömərin (r.a) rəvayət etdiyi hədisdə Peyğəmbər (s.ə.s) demişdir: *«Hər biriniz qəyyumsunuz və hər biriniz tabeçiliyinzdə olanlar haqqında sorğu-sual olunacaqsınız…»* (əl-Buxari, 893).

**1.** Övladı əzizləmək onun haqlarındandır:

Əbu Hüreyrə (r.a) deyir: *«Peyğəmbər (s.ə.s) Əlinin (r.a) oğlu Həsəni (r.a) öpdü. Yanında oturan əl-Əqra bin Həbis ət-Təmimi bunu görüb dedi: "Mənim on övladım var, onlardan heç birini öpməmişəm". Peyğəmbər (s.ə.s) ona baxıb dedi: "Rəhm etməyənə rəhm olunmaz"»* (əl-Buxari, 5997).

**2.** Övlad üçün xeyirli dua etmək onun haqlarındandır:

Əbu Hüreyrədən (s.ə.s) rəvayət olunan hədisdə Peyğəmbər (s.ə.s) demişdir: *"Üç nəfərin – məzlumun, müsafirin və valideynin övladı üçün etdiyi duanın qəbul olunmasına şəkk yoxdur"* (Səhihu-l-ədəbi-l-mufrad, 32).

**3.** Övladın qayğısına qalmaq onun haqlarındandır. Əbu Səid əl-Xudridən rəvayət olunan hədisdə Peyğəmbər (s.ə.s) demişdir: *"Üç qız uşağının və ya üç bacının qayğısına qalan cənnətə daxil olar"* (Səhihu-l-ədəbi-l-mufrad, 79).

**4.** Övladı tərbiyə etmək onun haqlarındandır.

İslam tərbiyəsi iki mənbədən götürülür:

1. Qur‘ani-kərim,
2. Səhih hədislər:

لَقَدْ كَانَ لَكُمْ فِي رَسُولِ اللَّهِ أُسْوَةٌ حَسَنَةٌ لِمَنْ كَانَ يَرْجُو اللَّهَ وَالْيَوْمَ الْآخِرَ وَذَكَرَ اللَّهَ كَثِيرًا ﴿٢١﴾

**«Həqiqətən, Allahın elçisi Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) və Allahı çox zikr edənlər üçün gözəl nümunədir»** («əl-Əhzab» surəsi, 21).

İslamda tərbiyənin üslubları:

– nəsihət vermək (Qur‘an ayələri, səhih hədislər və gözəl sözlərlə);

– Qur‘an və səhih hədislərdə varid olan tərbiyəvi hekayələri danışmaq;

– nümunə olmaq (yə‘ni, tərbiyə edən özü tərbiyə olunan üçün nümunə olmalıdır);

– çəkindirmək (pis işlərdən) və həvəsləndirmək (yaxşı işlərə);

– tərbiyəsiz və əxlaqsızların pis aqibətlərini misal çəkmək.

---

# V HAQQ

---

## Qohum-əqrabanın haqqı

Bu haqqı ödəmək hər bir müsəlmana (əvvəlki haqlar kimi) vacibdir:

وَآتِ ذَا الْقُرْبَى حَقَّهُ

**«Qohum-əqrabanın haqqını ver»** («əl-İsra» surəsi, 26).

Əbu Hüreyrədən (r.a) rəvayət olunan hədisdə Peyğəmbər (s.ə.s) demişdir: *"Ruzisinin çoxalmasını, ömrünün uzanmasını istəyən şəxs qohumluq əlaqələrini möhkəmləndirsin"* (əl-Buxari, 585).

Cubeyr bin Mut‘imin (r.a) rəvayət etdiyi hədisdə Peyğəmbər (s.ə.s) demişdir: *"Qohumluq əlaqələrini kəsən cənnətə daxil olmaz"* (əl-Buxari, 5984).

Qohum-əqrabanı İslama də‘vət etmək, onların haqlarındandır:

فَلَا تَدْعُ مَعَ اللَّهِ إِلَهًا آخَرَ فَتَكُونَ مِنَ الْمُعَذَّبِينَ ﴿٢١٣﴾ وَأَنذِرْ
عَشِيرَتَكَ الْأَقْرَبِينَ ﴿٢١٤﴾

**«Elə isə Allahla yanaşı başqa bir tanrıya ibadət etməkdən çəkin, yoxsa əzaba düçar edilənlərdən olarsan! Və ən yaxın qohumlarını qorxut!»** («əş-Şüəra» surəsi, 213-214).

İnsanların çoxu bu haqqı unudaraq qohumlarını tərk edir. Halbuki, sadəcə onların əhvalını öyrənməklə (soruşmaqla) boynunda olan haqqı ödəmiş olar. Bə‘ziləri də yalnız qohumları onları yad edəndə o da onları yad edir. Bu da şəriətə müxalifdir. Şəriətə görə isə çətinlikdə də, firavanlıqda da qohumları ziyarət edib onların haqqını ödəmək lazımdır.

**Qeyd:** Qohum kafir olsa belə, onun haqqı ödəməliyik.

# VI HAQQ

## Qonşunun haqqı

وَاعْبُدُوا اللَّهَ وَلَا تُشْرِكُوا بِهِ شَيْئًا وَبِالْوَالِدَيْنِ إِحْسَانًا وَبِذِي الْقُرْبَىٰ
وَالْيَتَامَىٰ وَالْمَسَاكِينِ وَالْجَارِ ذِي الْقُرْبَىٰ وَالْجَارِ الْجُنُبِ وَالصَّاحِبِ
بِالْجَنبِ وَابْنِ السَّبِيلِ وَمَا مَلَكَتْ أَيْمَانُكُمْ إِنَّ اللَّهَ لَا يُحِبُّ مَن كَانَ
مُخْتَالًا فَخُورًا ﴿٣٦﴾

**«Allaha ibadət edin və Ona heç bir şeyi şərik qoşmayın! Ata-anaya, qohum-əqrabaya, yetimlərə, yoxsullara, yaxın və uzaq qohum-qonşuya, yaxın yoldaş və dostlara, müsafirlərə, sahib olduğunuz qul və kənizlərə yaxşılıq edin! Həqiqətən, Allah özünü bəyənənləri və lovğalıq edənləri sevməz»** («ən-Nisa» surəsi, 36).

Əbu Hüreyrədən (r.a) rəvayət olunan hədisdə Peyğəmbər (s.ə.s) demişdir: *"Allaha və axirət gününə inanan qonşusuna yaxşılıq etsin…"* (Müslim, 174).

Qonşunun haqqı aşağıdakı kimidir:

**1.** Evdə bişirilən yeməkdən imkan daxilində qonşuya verməк:

Əbu Zərdən (r.a) rəvayət olunan hədisdə Peyğəmbər (s.ə.s) demişdir: *"Ey Əbu Zərr, yemək bişirdikdə suyunu çox et və qonşuna da ondan ver!"* (Səhihu-l-ədəbi-l-mufrad, 83).

**2.** Qonşunun qadını ilə zina və qonşudan oğurluq etmək haramdır:

Əl-Miqdəd bin əl-Əsvəd (r.a) rəvayət edir: «*Peyğəmbərdən (s.ə.s) zina və oğurluq haqqında soruşduqda, o dedi: "Qonşunun qadını ilə zina etmək, başqa on qadınla edilən zinadan, qonşudan edilən oğurluq isə başqa on oğurluqdan daha pis və günahı da daha çoxdur"*»(Səhihul-ədəbil-mufrad,76).

**3.** Qonşuya əziyyət verməmək: Əbu Hüreyrə (r.a) rəvayət edir: *«Peyğəmbərə (s.ə.s) deyildi: "Ey Allahın elçisi! Filan qadın gecələri namaz qılıb, gündüzləri oruc tutub, yaxşı əməllər edib sədəqə verir, lakin qonşusuna dili ilə əziyyət verir". Peyğəmbər (s.ə.s) dedi: "O qadında xeyir yoxdur və o, cəhənnəm əhlindəndir"»* (Səhihul-ədəbil-mufrad, 88).

**4.** Qonşu kafir olsa da, ona yaxşılıq etmək.

Mücahid deyir: *«Abdullah bin Amrın (r.a) xidmətçisi qoç soyurdu. Abdullah (r.a) ona dedi: "Qurtardıqda ondan bir pay əvvəlcə qonşumuz yəhudiyə ver!" Bir nəfər dedi: "Yəhudiyə? Allah səni islah etsin!" Abdullah (r.a) dedi: "Peyğəmbər (s.ə.s) qonşu haqqında bizə o qədər nəsihət verirdi ki, ona miras payı ayıracağını zənn edirdik"»* (Səhihul-ədəbil-mufrad, 95).

---

# VII HAQQ

---

## Ərlə arvadın bir-birinə olan haqqı

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا يَحِلُّ لَكُمْ أَن تَرِثُوا النِّسَاءَ كَرْهًا ۖ وَلَا تَعْضُلُوهُنَّ
لِتَذْهَبُوا بِبَعْضِ مَا آتَيْتُمُوهُنَّ إِلَّا أَن يَأْتِينَ بِفَاحِشَةٍ مُّبَيِّنَةٍ ۚ وَعَاشِرُوهُنَّ
بِالْمَعْرُوفِ ۚ فَإِن كَرِهْتُمُوهُنَّ فَعَسَىٰ أَن تَكْرَهُوا شَيْئًا وَيَجْعَلَ اللَّهُ فِيهِ
خَيْرًا كَثِيرًا ﴿١٩﴾

**«Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir. (Qadınlar) açıq-aşkar pis bir iş görməyincə, özlərinə verdiyiniz şeylərin (mehrin) bir hissəsini geri qaytarmaq məqsədilə onlara əziyyət verməyin. Onlarla gözəl (Allahın buyurduğu kimi) rəftar edin. Əgər onlara nifrət etsəniz (dözün). Ola bilsin ki, sizə nifrət doğuran hər hansı bir şeydə Allah (sizdən ötrü) çoxlu xeyir nəzərdə tutmuş olsun»**
(«ən-Nisa» surəsi, 19).

وَلَهُنَّ مِثْلُ الَّذِي عَلَيْهِنَّ بِالْمَعْرُوفِ ۚ وَلِلرِّجَالِ عَلَيْهِنَّ دَرَجَةٌ

**«…Kişilərin qadınlar üzərində şəriətə görə hüquqları olduğu kimi, qadınların da onlar (kişilər) üzərində hüquqları vardır. Ancaq kişilər (daha artıq əziyyətə qatlaşdıqları üçün) onlardan bir dərəcə üstündürlər…»** («əl-Bəqərə» surəsi, 228).

Ərlə arvad bir-birinin haqqını tam ödəyərsə, xoşbəxt olarlar. Ümumiyyətlə, bu haqq üç qismdir:

1. Bədən ilə əlaqəli haqq;
2. Mal ilə əlaqəli haqq;
3. İctimai haqq.

## *Ərin boynunda olan haqlar*

**1.** Yemək, içmək, geyim və yaşayış yeri ilə qadını tə‘min etmək:

وَعَلَى الْمَوْلُودِ لَهُ رِزْقُهُنَّ وَكِسْوَتُهُنَّ بِالْمَعْرُوفِ

**«Arvadın yeməyi və geyimi öz qüvvəsi dairəsində uşağın atasının üzərinə düşür»** («əl-Bəqərə» surəsi, 233).

**2.** Qadını Allahın və Onun elçisinin (s.ə.s) buyurduğu qaydada tərbiyələndirmək:

الرِّجَالُ قَوَّامُونَ عَلَى النِّسَاءِ بِمَا فَضَّلَ اللَّهُ بَعْضَهُمْ عَلَى بَعْضٍ وَبِمَا
أَنفَقُوا مِنْ أَمْوَالِهِمْ فَالصَّالِحَاتُ قَانِتَاتٌ حَافِظَاتٌ لِّلْغَيْبِ بِمَا حَفِظَ اللَّهُ
وَاللَّاتِي تَخَافُونَ نُشُوزَهُنَّ فَعِظُوهُنَّ وَاهْجُرُوهُنَّ فِي الْمَضَاجِعِ
وَاضْرِبُوهُنَّ فَإِنْ أَطَعْنَكُمْ فَلَا تَبْغُوا عَلَيْهِنَّ سَبِيلًا إِنَّ اللَّهَ كَانَ عَلِيًّا
كَبِيرًا ﴿٣٤﴾

**«Kişilər qadınlar üzərində ixtiyar sahibidirlər. Bu, Allahın onlardan birini digərinə üstün etməsi və kişilərin öz mallarından (qadınları üçün) sərf etməsinə görədir. Əməlisaleh qadınlar (ərlərinə) itaət edib Allahın himayəsi sayəsində gizli şeyləri (ərlərinin sirlərini, mal-dövlətini, namus və şərəfini) qoruyub saxlayırlar. (Ey kişilər!) Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara nəsihət edin, (yola gəlməzlərsə) onlardan yatağınızı ayırın və (yüngülcə) döyün![4] Sizə itaət etdikdə isə onlara (əziyyət vermək üçün) başqa yol axtarmayın. Əlbəttə, Allah uca və böyükdür»** («ən-Nisa» surəsi, 34).

Əbu Hüreyrədən (r.a) rəvayət olunan hədisdə Peyğəmbər (s.ə.s) demişdir: *"Qadınlara diqqət edin, qadın qabırğadan yaranıb. Qabırğanın ən əyri hissəsi onun yuxarı tərəfidir, düzəltmək istəsən sındıracaqsan, düzəltməsən əyri qalacaq. Qadınlara diqqət edin!"* (əl-Buxari, 3331).

**3.** Qadınlarla kobud rəftar etməmək:

وَلَوْ كُنتَ فَظًّا غَلِيظَ الْقَلْبِ لَانفَضُّوا مِنْ حَوْلِكَ

**«Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb gedərdilər»** («Ali İmran», surəsi, 159).

---

[4] **Zədə vurmamaq, sındırmamaq, bədənində iz qoymamaq, üzə vurmamaq və s. kobud hərəkətlər etməmək şərti ilə.**

## *Arvadın boynunda olan haqlar*

**1.** Ərinə qulluq (dünyəvi işlərdə) və itaət (dini) etməlidir:

Aişədən (r.a) rəvayət olunan hədisdə Peyğəmbər (s.ə.s) demişdir: *"Allahdan qeyrisinə səcdə etmək caiz olsaydı, qadına ərinə səcdə etməsini əmr edərdim"* (İbn Macə, 2/1852).

Əbu Hüreyrədən (r.a) rəvayət olunan hədisdə Peyğəmbər (s.ə.s) demişdir: *"Qadın ərinin izni olmadan* (fərz olmayan) *oruc tutmamalıdır"* (əl-Buxari, 5192).

Əbu Hüreyrədən (r.a) rəvayət olunan hədisdə Peyğəmbər (s.ə.s) demişdir: *"Kişi qadınını yatağına çağırdıqda, o* (qadın) *onun* (ərinin) *istəyini yerinə yetirmədiyi üzündən əri qəzəblənmiş halda yatarsa, mələklər səhərə qədər o qadına lə'nət edərlər"* (Müslim, 3526).

**Qeyd:** Qadın yalnız üzrlü səbəbə görə cinsi əlaqədən imtina edə bilər.

**2.** Qadının əri ilə (və ərin qadını ilə) məzələnməsi (öpmək, qucaqlamaq və s.):

Cabir bin Abdullahdan (r.a) rəvayət olunan hədisdə Peyğəmbər (s.ə.s) demişdir: *"Allah zikri olmayan hər bir şey oyun-oyuncaqdır, dörd şeydən başqa: kişinin arvadı ilə məzələnməsi, atını əhlilləşdirməsi, iki hədəf arasında qaçması və üzməyi öyrənməsi"* (Səhih hədislər silsiləsi, 309).

**3.** Qadın, ərinin ona etdiyi yaxşılıqlara qarşı nankor olmamalıdır:

Əbu Səid əl-Xudri (r.a) rəvayət edir: *«Peyğəmbər (s.ə.s) bayram günü* (qurban və fitrə) *qadınların yanına gəlib dedi: "Ey qadınlar! Allah yolunda sədəqə verin! Cəhənnəm əhlinin əksəriyyətinin qadınlar olduğu mənə göstərildi". Onlar: "Nə üçün, ey Allahın elçisi?" – deyə soruşdular. O dedi: "Bu, sizin çox lə'nət etdiyinizə və ərlərinizə qarşı nankor olduğunuza* (ərin əziyyətini heç etməyinizə) *görədir"»* (əl-Buxari, 304).

# VIII HAQQ

## Hakimlərin haqqı

Hakim hər hansı bir topluya hökmranlıq edəndir. Məsələn, prezident xalqının, müəllim tələbələrinin, komandir əsgərlərinin, kişi ailəsinin hakimidir.

**1.** Hakimlərə tabe olmaq:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا أَطِيعُوا اللَّهَ وَأَطِيعُوا الرَّسُولَ وَأُولِي الْأَمْرِ مِنكُمْ

**«Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar sahiblərinə (hakimlərə) itaət edin!»** («ən-Nisa» surəsi, 59).

Əbu Hüreyrədən (r.a) rəvayət olunan hədisdə Peyğəmbər (s.ə.s.) demişdir: *"Mənə itaət edən Allaha itaət etmiş, mənə asi olan da Allaha asi olmuş olur. Əmirə itaət edən mənə itaət etmiş, ona asi olan isə mənə asi olmuş olur"* (Müslim, 4724).

Yalnız Allahın haram buyurduğu işlərə (oğurluq, zinakarlıq, narkotik maddələrin istifadəsi və s.) itaət etmək haramdır.

Abdullah bin Ömərdən (r.a) rəvayət olunan hədisdə Peyğəmbər (s.ə.s) demişdir: *"Hər bir müsəlmana xoşuna gələn və gəlməyən işlərdə* (əmiri) *eşidib, itaət etmək vacibdir. Yalnız Allaha asi olan işlərdə itaət etmək olmaz"* (Müslim, 4740).

**2.** Onların işinə qarışmamaq:

Əbu Hüreyrədən (r.a) rəvayət olunan hədisdə Peyğəmbər (s.ə.s) demişdir: *"Kişinin* (və ya qadının) *islamının gözəlliyi, ona aid olmayan şeyləri tərk etməsindədir"* (ət-Tirmizi, 2317).

Əl-Həsən ibn Əli (r.a) rəvayət edib deyir: *«Mən Peyğəmbərdən (s.ə.s): "Sənə aid olanı götür, aid olmayanı isə tərk et!" – sözlərini əzbərlədim»* (əl-Müsənnəf Əbd ər-Razzəq, 4984).

**3.** Öz nəfsiniz üçün istədiyiniz xeyirdən və hidayətdən onlar üçün də istəmək bu haqdandır:

Ənəs bin Malikin (r.a) rəvayət etdiyi hədisdə Peyğəmbər (s.ə.s) demişdir: *"Sizdən biriniz nəfsinə istədiyini qardaşı* (və ya bacısı, ata-anası və s.) *üçün istəməyincə imanı kamil olmaz"* (əl-Buxari, 13).

**4.** Allahın onlara verdiyi var-dövlətə göz dikməmək və həsəd aparmamaq:

Səhl bin Sə‘d əs-Sə‘idinin (r.a) rəvayət etdiyi hədis: *«Bir kişi gəlib Peyğəmbərə (s.ə.s) dedi: "Ey Allahın elçisi! Mənə elə bir əməl öyrət ki, onu etdikdə həm Allah, həm də insanlar məni sevsin". Peyğəmbər (s.ə.s) dedi: "Dünyaya göz dikmə, Allah səni sevsin. İnsanların əlindəkinə göz dikmə, insanlar səni sevsin"»* (İbn Macə, 4102; Səhih hədislər silsiləsi, 944).

# IX HAQQ

## Müsəlmanların bir-birinə olan haqqı

**1.** Mö‘minlər öz aralarında biri-birilərinə qarşı mərhəmətli, mülayimdirlər:

مُحَمَّدٌ رَسُولُ اللَّهِ وَالَّذِينَ مَعَهُ أَشِدَّاءُ عَلَى الْكُفَّارِ رُحَمَاءُ بَيْنَهُمْ

**«Məhəmməd Allahın elçisidir. Onlunla birlikdə olanlar (mö‘minlər) kafirlərə qarşı sərt, (öz aralarında isə) bir-birinə qarşı mərhəmətlidirlər»** («əl-Fəth» surəsi, 29).

Əbu Musadan (r.a) rəvayət olunan hədis: *«Peyğəmbər (s.ə.s) demişdir: "Mö‘minlər bina kimidir, bir-birinə dayaq olur". Sonra o (s.ə.s) əllərinin barmaqlarını bir-birinə keçirtdi»* (əl-Buxari, 6026).

Əbu Hüreyrədən (r.a) rəvayət olunan hədisdə Peyğəmbər (s.ə.s) demişdir: *"Mö‘min bəndə* (mö‘min) *qardaşına yardım etdikcə Allah da ona yardım edər"* (Müslim, 6793).

**2.** Müsəlman olan şəxs başqa müsəlmanlara zərər vurmamalıdır:

Abdullah ibn Amrdan (r.a) rəvayət olunan hədisdə Peyğəmbər (s.ə.s) demişdir: "(Həqiqi) *müsəlmanın əlindən və dilindən başqa müsəlmanlar zərər çəkməz…"* (əl-Buxari, 10). Bu hədisdə əl və dil ən çox hərəkətdə olan əza olduğu üçün xüsusiləşdirildi. Deməli, müsəlman hər bir əzasını xeyir üçün istifadə etməlidir.

**3.** Müsəlman bacardığı qədər pisliyi yaxşılıqla dəf etməli və ya onun əvəzini pisliklə çıxmamalıdır:

ادْفَعْ بِالَّتِي هِيَ أَحْسَنُ السَّيِّئَةَ

**«Sən pisliyi yaxşılıqla dəf et!»** («əl-Mu‘minun» surəsi, 96).

وَلَا تَسْتَوِي الْحَسَنَةُ وَلَا السَّيِّئَةُ ادْفَعْ بِالَّتِي هِيَ أَحْسَنُ فَإِذَا الَّذِي بَيْنَكَ
وَبَيْنَهُ عَدَاوَةٌ كَأَنَّهُ وَلِيٌّ حَمِيمٌ ﴿٣٤﴾ وَمَا يُلَقَّاهَا إِلَّا الَّذِينَ صَبَرُوا وَمَا
يُلَقَّاهَا إِلَّا ذُو حَظٍّ عَظِيمٍ ﴿٣٥﴾

**«Yaxşılıqla pislik eyni ola bilməz! (Ey mö‘min kimsə!) Sən pisliyi yaxşılıqla dəf et! Belə olduqda aranızda düşmənçilik olan şəxsi sanki yaxın bir dost görərsən. Bu (xislət) yalnız (dünyada məşəqqətlərə) səbr edənlərə verilir və yalnız böyük ismət (savab, fəzilət) sahiblərinə əta olunur»** («Fussilət» surəsi, 34-35).

وَعِبَادُ الرَّحْمَٰنِ الَّذِينَ يَمْشُونَ عَلَى الْأَرْضِ هَوْنًا وَإِذَا خَاطَبَهُمُ الْجَاهِلُونَ
قَالُوا سَلَامًا ﴿٦٣﴾

**«Rəhmanın bəndələri o kəslərdir ki, onlar yer üzündə təmkinlə, təvazökarlıqla gəzər, cahillər onlara söz atdıqları (xoşlarına gəlməyən bir söz dedikləri) zaman onlarla gözəl, yumşaq danışarlar»** («əl-Furqan» surəsi, 63).

**4.** Müsəlman qardaşının səhvini gördükdə onu düzəltmək üçün çalışmalı və camaat arasında onu ifşa etməməlidir:

Əbu Səid əl-Xudridən (r.a) rəvayət olunan hədisdə Peyğəmbər (s.ə.s) demişdir: *"Sizdən biriniz münkər* (günah) *gördükdə onu əli ilə düzəltsin! Ona qadir olmasa, dili ilə düzəltsin! Ona qadir olmasa, qəlbi ilə* (o münkərə) *nifrət etsin ki, bu da imanın ən zəif mərtəbəsidir"* (Müslim, 175).

Əbu Hüreyrədən (r.a) rəvayət olunan hədisdə Peyğəmbər (s.ə.s) demişdir: *"Kim bir müsəlmanın eybini örtərsə, Allah da dünya və axirətdə onun eybini örtər"* (Müslim, 6793).

**5.** Müsəlman ticarət etdikdə də aldatmamalıdır:

وَيْلٌ لِّلْمُطَفِّفِينَ ﴿١﴾ الَّذِينَ إِذَا اكْتَالُوا عَلَى النَّاسِ يَسْتَوْفُونَ ﴿٢﴾ وَإِذَا
كَالُوهُمْ أَو وَّزَنُوهُمْ يُخْسِرُونَ ﴿٣﴾

**«Vay halına çəkidə və ölçüdə aldadanların! O kəslər ki, özləri xalqdan bir şey aldıqları zaman onu tam ölçüb alar, xalq üçün bir şey ölçdükdə və çəkdikdə onu əskildərlər»** («əl-Mutaffifin» surəsi, 1-3).

Əbu Hüreyrədən (r.a) rəvayət olunan hədisdə Peyğəmbər (s.ə.s) demişdir: *"Bizə qarşı silah qaldıran və bizi aldadan* (ticarətdə və s.) *bizdən deyildir"* (Müslim, 164).

**6.** Mö‘minlərə əziyyət verməmək də bu haqlardandır:

وَالَّذِينَ يُؤْذُونَ الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ بِغَيْرِ مَا اكْتَسَبُوا فَقَدِ احْتَمَلُوا
بُهْتَانًا وَإِثْمًا مُبِينًا ﴿٥٨﴾

**«Mö‘min kişiləri və qadınları etmədikləri bir işdən ötrü incidənlər, şübhəsiz ki, öz üzərlərinə böhtan və açıq-aydın bir günah götürmüşlər»** («əl-Əhzab» surəsi, 58).

Bundan əlavə Peyğəmbərin (s.ə.s) hər bir müsəlman üçün xüsusiləşdirdiyi haqlar var.

Əbu Hüreyrədən (r.a) rəvayət olunan hədisdə Peyğəmbər (s.ə.s) demişdir: *"Müsəlmanın müsəlman üzərində haqqı altıdır". "Onlar hansılardır?" – deyə soruşulduqda, o demişdir: "Qarşılaşdıqda salamını almaq, də‘vət etdikdə də‘vətini qəbul etmək, nəsihət istədikdə nəsihət vermək, asqırıb "əlhəmdu lilləh" desə, ona "yərhəmukəllah" demək, xəstələndikdə ziyarət etmək və vəfat etdikdə cənazəsinin ardınca getmək"* (Müslim, 5616).

**7.** Müsəlmanların arasında sülh yaratmaq:

إِنَّمَا الْمُؤْمِنُونَ إِخْوَةٌ فَأَصْلِحُوا بَيْنَ أَخَوَيْكُمْ وَاتَّقُوا اللَّهَ لَعَلَّكُمْ
تُرْحَمُونَ ﴿١٠﴾

**«Həqiqətən, mö‘minlər qardaşdırlar. Buna görə də (aralarında bir mübahisə düşsə) iki qardaşınızın arasını düzəldin və Allahdan qorxun ki, bəlkə rəhm olunasınız»** («əl-Hücurat» surəsi, 10).

# X HAQQ

## Qeyri-müsəlmanların haqqı

Kafirlər və müşriklər Allahın, Peyğəmbərin (s.ə.s) və müsəlmanların düşmənidir. Lakin bununla belə onların haqqını ödəmək, onlara qarşı ədalətli olmaq biz müsəlmanların borcudur:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا كُونُوا قَوَّامِينَ لِلَّهِ شُهَدَاءَ بِالْقِسْطِ وَلَا يَجْرِمَنَّكُمْ
شَنَآنُ قَوْمٍ عَلَى أَلَّا تَعْدِلُوا اعْدِلُوا هُوَ أَقْرَبُ لِلتَّقْوَى وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ
خَبِيرٌ بِمَا تَعْمَلُونَ ﴿٨﴾

**«Ey iman gətirənlər! Allah qarşısında sabitqədəm və ədalətli şahidlər olun. Hər hansı bir camaata qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu, təqvaya daha yaxındır. Allahdan qorxun. Allah etdiklərinizdən xəbərdardır»** («əl-Maidə» surəsi,8).

Əbu Zərdən (r.a) rəvayət olunan hədis: *«Peyğəmbər (s.ə.s) Rəbbindən rəvayət edib deyir ki, "O dedi: – Ey qullarım! Mən zülm etməyi nəfsimə haram etdim. Sizin bir-birinizə zülm etməyinizi də sizə haram etdim. Bir-birinizə zülm etməyin!"»* (Müslim, 6517).

Ümumiyyətlə kafirlər dörd qismdir:

**1.** İslamın və müsəlmanların düşməni:

وَمَن يَعْصِ اللَّهَ وَرَسُولَهُ وَيَتَعَدَّ حُدُودَهُ يُدْخِلْهُ نَارًا خَالِدًا فِيهَا وَلَهُ
عَذَابٌ مُّهِينٌ

**«Hər kəs Allaha və Peyğəmbərinə itaət etməyib Onun sərhədlərini aşarsa, Allah da onu həmişəlik cəhənnəmə daxil edər. Onu rüsvayçı əzab gözləyir»** («ən-Nisa» surəsi, 14).

**2.** Aman istəyənlər. Onların haqqı, tə'yin olunmuş məkan və zaman ərzində onları himayəyə götürməkdir:

وَإِنْ أَحَدٌ مِّنَ الْمُشْرِكِينَ اسْتَجَارَكَ فَأَجِرْهُ حَتَّىٰ يَسْمَعَ كَلَامَ اللَّهِ ثُمَّ
أَبْلِغْهُ مَأْمَنَهُ

**«Əgər müşriklərdən biri səndən aman istəsə, ona aman ver ki, Allah kəlamını dinləsin. Sonra onu əmin olduğu yerə çatdır»**
(«ət-Tövbə» surəsi, 6).

**3.** Əhd bağlayanlar. Onların haqqı, onlarla bağlanan əhdə vəfa etmək və tə'yin olunmuş müddət ərzində bağlanan ittifaqı pozmamaqdır:

إِلَّا الَّذِينَ عَاهَدتُّم مِّنَ الْمُشْرِكِينَ ثُمَّ لَمْ يَنقُصُوكُمْ شَيْئًا وَلَمْ يُظَاهِرُوا
عَلَيْكُمْ أَحَدًا فَأَتِمُّوا إِلَيْهِمْ عَهْدَهُمْ إِلَىٰ مُدَّتِهِمْ

**«Müqavilə bağladıqdan sonra sizə qarşı bir əskiklik etməmiş və sizin əleyhinizə heç kəsə yardım göstərməmiş (müşriklər) istisnadır. Onlarla olan əhdinizə axıra qədər (müddəti bitənədək) vəfa edin»** («ət-Tövbə» surəsi, 4).

**4.** Zimmilər. Bunlar İslam dövlətində daimi sakin olan yəhudi, xaçpərəst, məcusi və qeyriləridir:

## ***Zimmə əhlinin haqqı***

**1.** Zimmə əhdini pozmamaq:

وَأَوْفُوا بِعَهْدِ اللَّهِ إِذَا عَاهَدْتُمْ

**«Əhd etdiyiniz zaman Allaha verdiyiniz əhdi yerinə yetirin!»** («ən-Nəhl» surəsi, 91).

**2.** İslam dinini qəbul etməyi onlara məcbur etməmək:

لَا إِكْرَاهَ فِي الدِّينِ قَد تَّبَيَّنَ الرُّشْدُ مِنَ الْغَيِّ

**«Dində məcburiyyət yoxdur. Artıq doğruluq (iman) azğınlıqdan (küfrdən) fərqlənir»** («əl-Bəqərə» surəsi, 256).

**3.** Onları himayə və müdafiə etmək.

**4.** Onları sirdaş tutmayaraq onlara yaxşılıq etmək:

لَا يَنْهَاكُمُ اللَّهُ عَنِ الَّذِينَ لَمْ يُقَاتِلُوكُمْ فِي الدِّينِ وَلَمْ يُخْرِجُوكُم مِّن
دِيَارِكُمْ أَن تَبَرُّوهُمْ وَتُقْسِطُوا إِلَيْهِمْ إِنَّ اللَّهَ يُحِبُّ الْمُقْسِطِينَ ﴿٨﴾ إِنَّمَا
يَنْهَاكُمُ اللَّهُ عَنِ الَّذِينَ قَاتَلُوكُمْ فِي الدِّينِ وَأَخْرَجُوكُم مِّن دِيَارِكُمْ
وَظَاهَرُوا عَلَىٰ إِخْرَاجِكُمْ أَن تَوَلَّوْهُمْ وَمَن يَتَوَلَّهُمْ فَأُولَٰئِكَ هُمُ
الظَّالِمُونَ ﴿٩﴾

**«Allah din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxarmayan kimsələrə yaxşılıq etməyi və onlarla ədalətlə rəftar etməyi sizə qadağan etməz. Allah ədalətli olanları sevər. Allah sizə ancaq sizinlə din yolunda vuruşan, sizi yurdunuzdan çıxaran və çıxartmağa kömək edən kimsələrlə dostluq etmənizi qadağan edər. Onlarla dostluq edənlər əsl zalimlərdir»** («əl-Mumtəhinə» surəsi, 8-9).

**5.** Günah olan işlərə (araq içmək, donuz əti yemək və s.) müsəlmanları də‘vət etməyincə, o işləri etməkdə onlara mane olmamaq.

**6.** Qanlarına və mallarına bais olmamaq.

**7.** Zülm etməmək və bacara bilmədiyi bir işi etməyə məcbur etməmək.

# SON SÖZ

Bu gün İslam aləmində ədalətsizlik baş alıb gedir ki, bu da İslama ləkə vurur və İslam də‘vətinə mane olur. Müsəlmanların başlarına gələn bir çox bəlalar da məhz bu ədalətsizliklərinə görədir. Ömər bin əl-Xəttab (r.a) demişdir: «Biz müsəlmanlar

Allahın islam dini ilə izzətləndirdiyi bir ümmətik, nə vaxta qədər ki, islam dinindən başqa bir şeylə izzətlənmək istəyəcəyik, Allah da bizi zəlil edəcək».

Əziz müsəlman qardaş və bacılarım! Bu on haqqı lazımınca yerinə yetirməyə çalışın və bu işdə Allahın müsəlmanlara kömək etməsini Ondan diləyin!

## MÜNDƏRİCAT

**Müqəddimə** 3

Birinci haqq: **Allahın haqqı** 5

**İslam** 7

**İman** 8

**Ehsan** 11

İkinci haqq: **Peyğəmbərin (s.ə.v) haqqı** 11

Üçüncü haqq: **Valideynin haqqı** 14

Dördüncü haqq: **Övladın haqqı** 16

Beşinci haqq: **Qohum-əqrabanın haqqı** 17

Altıncı haqq: **Qonşunun haqqı** 18

Yeddinci haqq: **Ər-arvadın bir-birinə olan haqqı** 19

Səkkizinci haqq: **Hakimlərin haqqı** 21

Doqquzuncu haqq: **Müsəlmanların bir-birinə olan haqqı** 23

Onuncu haqq: **Qeyri-müsəlmanların haqqı** 25

**Son söz** 27

"Adiloğlu" nəşriyyatı, Bakı. S.Vurğun küç. 34 (D.Əliyeva 211a)
İstehsalçı "Adiloğlu" nəşriyyatı,
Bakı, Qeydiyyat No A-075, 14/02/2001;
Bakı 2002; Yığılmağa verilib: 12/03/02;
Çapa imzalanıb: 10/05/02; Uçot-nəşriyyat həcmi:1.25 m.v.;
Fiziki həcm:1.25 ç.v.; Format:60x84 1/16; Səh.: 28 ;
Ofset kağızı; Arial şrifti; Ofset üsulu ilə çap edilib;
Tiraj: 1500; Sifariş №116
Bu kitabda müsəlmanlara Allahın, Onun peyğəmbərinin (s.ə.s), validеyinlərin, cəmiyyətin və s.r. haqqlarını ödəməyin vacibliyindən bəhs olunur.